## Vətənpərvərlik

# Unutqanlıq bizə yaddır

Vətən-xalq - torpaq yolunda canlarını sipər edənlər, ölümün gözünə dik baxanlar, şəhadətlik zirvəsinə ucalanlar hər kəsin qəlbində əbədi yaşayır. Tarixi dəyişərək Zəfər tarixi yazdı onlar! Qəlbində vətənpərvərlik hissi olan hər kəs, vətəndaş məfhumluğunu tamlığıyla özünə aid edən və xalqının tarixini qoruyub saxlayan hər bir azərbaycanlı onları unutmur, onların yaddaşlara daha da dərindən iz salması, gələcək nəsillərin qan yaddaşında əbədi qalmaq üçün igidlərimizin adlarını əbədiləşdirir və ailələrini, məzarlarını ziyarətgaha çevirirlər.


Şəhid İsmayıl Qurbanov.


Şəhid Hakim Baxışov.


Şəhid Coşqun Bayramov.


Şəhid Adəm Heydərov.

Qəbələ şəhidlərinin ailələri gözəl bahar fəslində yenidən ziyarət olunmuşdur. Bum kənd sakini Adəm İkram oğlu Heydərovun, Qəmərvan kənd sakini Coşqun Ənvər oğlu Bayramovun, Topbağ kənd sakini Hakim Səyyar oğlu Baxışovun, Böyük Pirəli kənd sakini İsmayıl Yaşar oğlu Qurbanovun, Nic qəsəbə sakini Elşən Dəmirlinin ailələri rayon icra hakimiyyətinin əməkdaşları tərəfindən evlərində ziyarət edilmişlər. Ziyarətçilər şəhid ailələrinin problemləri ilə maraqlanmış, onları narahat edən məsələlər öyrənilmiş və həlli nəzarətə götürülmüşdür.

Həmçinin görüş zamanı şəhidin ailə üzvləri dövlət tərəfindən şəhid ailələrinə göstərilən diqqətə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.


Şəhid Elşən Dəmirli.

30 ilə yaxın əsir olan, yad tapdaqları altında "əzilən" torpaqlarımızı azad edərkən, məcburi köçkün olanların öz doğma el-obasına qayıtması üçün döyüşərkən canlarını qurban edən igidlərimiz bu gün hər kəsin qəlbində özünə əbədi məskən salmışdır. Yaşlı nəslin qürurmənbəyinə, gənc nəslin and yerinə çevrilmişdir. Axı onlar Vətən uğrunda döyüşmüşlər.

Şəhidlər bizim tariximizin əbədi qəhrəmanlıq salnaməsidir. İllər bir-birini əvəz edərək əsrlərə çevriləcək. Nəsillər də təbii ki, dəyişəcək. Ancaq bu gün qəhrəman şəhidlərimizə, Vətənimizin bütövlüyü, torpaqlarımızın azadlığı, xalqımızın firavan yaşayışı üçün döyüşən, sağlamlığını itirən və canını qurban verən igidlərimizə göstərilən qayğı və sevgi, onlara verilən qiymət sabahkı nəsillərə də örnək olacaq. Hər bir nəsil öz şəcərəsinə bu qəhrəmanlığı ərməğan edərək əbədiyyən yaşadacaq. Axı unutqanlıq bizə yaddır. Heç kəs unudulmur, heç nə yaddan çıxmır!

**BİBİXANIM.**

# Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə medalların təqdim edilməsi ilə bağlı tədbir keçirilmişdir







26 may 2022-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamları ilə Vətən müharibəsində göstərdikləri igidliyə görə təltif edilmiş Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə medalların təqdim olunması ilə bağlı Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsində tədbir keçirilmişdir. Tədbirdə Vətən müharibəsi zamanı hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu, döyüş tapşırıqlarını yerinə yetirərkən həlak olmuş rayonumuzdan olan şəhidlərin ailə üzvlərinə medallar təqdim olunmuşdur. Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tədbirdə çıxış edərək Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük savaşda qazandığımız tarixi nailiyyətlərə görə Ali Baş Komandana, onun rəhbərliyi altında bizləri Qələbə ilə sevindirən Azərbaycan Ordusunun əsgər və zabitlərinə, hərbçilərimizə, Vətən uğrunda sağlamlığını itirən qeyrətli, cəsur qazilərimizə, canından keçən şəhidlərimizə bir ömür boyu borclu olduğumuzu qeyd etmiş, şəhidlərə Allahdan rəhmət, onların valideynlərinə səbr, qazilərə can sağlığı arzulamışdır. Tədbirdə iştirak edən şəhidlərin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2022-ci İLİN İYUN AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Əmirvan kəndi | 07.06.2022 | Kənd məktəbi, saat $15^{00}$ |
| Xırxatala kəndi | 14.06.2022 | Kənd məktəbi, saat $15^{00}$ |
| Quşlar kəndi | 21.06.2022 | Kənd məktəbi, saat $11^{00}$ |
| Vəndam qəsəbəsi | 28.06.2022 | 2 saylı qəsəbə məktəbi, saat $11^{00}$ |

# Rih.gov.az portalı haqqında

Vətəndaşların icra hakimiyyətlərinə yönləndirdikləri bütün məktub və xahişlər haqqında məlumatlandırılması üçün elektron hökuməti inkişafı mərkəzi tərəfindən rih.gov.az portalı "şəxsi kabinet" yaradılmışdır.




Bu bölmə vasitəsilə vətəndaşlar müraciətlərinin icra statusunun, işin gedişatını izləyə bilər və yerli icra hakimiyyəti orqanları tərəfindən göndərilən müraciətlərə dair cavab məktubunu əldə edə bilərlər. Eyni zamanda müraciətlər barədə kabinet vasitəsilə bildirişlər də vətəndaşlara göndərilir.

rih.gov.az protalına 3 fərqli üsul ilə giriş etmək mümkündür.

**1. İdentifikasiya nömrəsi ilə.**
**2. Asan imza ilə.**
**3. Elektron imza ilə.**

Portala identifikasiya nömrəsi ilə giriş etmək istəyən vətəndaşlar əgər bundan əvvəl asan login sistemində qeydiyyatdan keçməyiblərsə "Qeydiyyat" düyməsinə sıxaraq asan login sistemində qeydiyyatdan keçməlidirlər. Qeydiyyat mobil nömrə və ya video qeydiyyat üsulu ilə aparılır.

Hər iki üsul barədə daha ətraflı məlumat əldə etmək üçün sağ küncdə yerləşən video işarələrinə düyməsinə sıxaraq təlimat videosunu izləmək mümkündür.

Portalda 4 əsas modul fəaliyyət göstərir.

**1. Vətəndaş qəbul bölməsi**
**2. Xidmətlər bölməsi**
**3. E-iştirakçılıq**
**4. Məlumatlandırma**